**Redaktordan**

# Portretin işığı ilkinliyin aynasında

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ən çox işlək janrı kimi publisistika həm ədəbi mühitin, həm də həyatın ən müxtəlif tərəflərinə davamlı olaraq işıq salır. Publisistlərimiz öz yazılarında cəmiyyətlə, insanlarla açıq, birbaşa danışa bilir, yaradıcılıqları ilə sıx ünsiyyət qururlar. Deməli, həyatımızın inkişafına publisistikanın çox böyük təsiri var.

Elə insanlar var ki, onların həyatları örnəkdir. Belələri cəmiyyət üçün dəyərli əməlləri ilə işıq ola bilirlər. Bu baxımdan mənalı həyat yaşamış insanların ömür yolunu yazmaq, gələcək nəsillərin daha yaxından tanıması üçün adlarını əbədiləşdirmək həm də publisistlərin borcudur.

"Böyük portretin işığı" kitabını vərəqləyirəm. Müəlliflər tanınmış şair-publisist Əli Rza Xələfli və "Kredo" qəzetinin gənc yazarı Ceyhun Zallıdır. Onu da deyim ki, bu kitab müəlliflərin görkəmli naşir, Azərbaycanın ilk poliqrafçı alimi, yazıçı-publisist fəaliyyəti ilə də yaxşı tanınan Şəddat Cəfərov haqqında yazdıqları ikinci əsərdir. Bir az da dəqiqləşdirsək, "Böyük portretin işığı" kitabı iki cilddən ibarətdir. Müəlliflər birinci cildi 2020-ci ildə nəşr etdiriblər. Ancaq, görünür, görkəmli naşirin həyatını yaxşı öyrəndiklərindən işlərini davam etdiriblər. Beləliklə, "Böyük portretin işığı" kitabının ikinci cildi də oxuculara təqdim olunur.

Müəlliflərin Şəddat Cəfərov obrazına xüsusi diqqətlə və əhatəli yanaşmalarının səbəbi var. Axı, onun həyatıbütün keşməkeşləri ilə cəmiyyətimizin 80 illik bir dövrünü əhatə edir.

1940-cı ildə anadan olan Şəddat Cəfərovun mənsub olduğu ailənin taleyi repressiyalardan keçib. Atası Muğdat Hüseyn oğlu müharibə qəhrəmanı kimi İkinci Cahan savaşının odlarını, alovlarını görüb. Stalinizmin qəddar rejimi bütün sərtliklərinə baxmayaraq bu ailənin mənəvi durumunu dağıda bilməyib. Şəddat və qardaşları zəhmətkeş atanın, cəfakeş ananın sonsuz zəhməti sayəsində yüksək mənəvi keyfiyyətlər qazanıb, əxlaqları, insanlar arasında zəhmətə sevgiləri ilə fərqləniblər. Bir sözlə, Şəddat belə bir mühitin övladıdır. Onun həyatının hər bir mərhələsi hissə-hissə yazılası sənədli roman mövzusunu təmin edər. Təsadüfi deyil ki, Şəddat Cəfərovun ömür yolunu ayrı-ayrı vaxtlarda başqa müəlliflər də yazıya alıblar. Yazıçı-dramaturq Fatma Həsənqızının "Acılı-şirinli günlər", yazıçı-publisist Sevda Əlibəylinin "İlk poliqrafçı alim" sənədli və publisistik romanlarıŞəddat Cəfərovun ömür yolunu işıqlandırmaq baxımından ilkin mənbələrdir.

"Böyük portretin işığı" (II cild) kitabının müəllifləri Əli Rza Xələfli və Ceyhun Zallı məlum portretə daha orijinal yanaşma ilə yeni ruhlu əsər yaradıblar. Onlar Şəddat Cəfərov haqqında yazılanları ədəbi cəhətdən diqqətə alır, ayrı-ayrı həyat epizodlarını təhlilə çəkirlər. Və, əlbəttə, yeri gəldikcə Şəddat müəllimin ömür yolundan bəhs edən bədii fakt nümunələrini günümüzün reallıqları ilə müqayisə edirlər.

Bu kitabın əsas məziyyətlərindən biri də elmi üslubla bədii üslubun qovuşuğunda qələmə alınmasıdır.

Şəddat Cəfərov haqqında yazılanları müəlliflər təhlil edə-edə mövzunun mahiyyətinə uyğun hadisələrə bədii fon da verirlər, bu da kitabı daha oxunaqlı edir.

Məlumdur ki, Şəddat Cəfərovun ilkin uşaqlıq çağları müharibə dövrünə təsadüf edib. O, İkinci Cahan savaşının acılarını ailənin yaşadığı ehtiyacda hiss edib. Atasının müharibədə olması ilə bağlı ayrılıq duyğuları da onun həyatında iz buraxıb. Görünür, elə bu səbəbdən də Şəddat Cəfərov İkinci Cahan müharibəsinin qəhrəmanlarını ədəbi-publisist yazılarının əsas obrazlarına çevirib. "Döyüşçü iradəsi", "Qəhrəmanlar ölmür", "Böyüklər mənən yaşayırlar", "Şəxsi nümunədə əzmkarlıq", "Böyükləri tanımaq"... kimi yazılar Şəddat Cəfərovun bədii-publisist hekayələri əsasında yazılıb. Müəlliflər Şəddat Cəfərovun xüsusi sevgi ilə tərənnüm etdiyi qəhrəmanların həyatını onun oçerklərindən öyrənməklə həm həmin qəhrəmanlara öz münasibətlərini bildirirlər, həm də Şəddat Cəfərovun obrazlara bədii yanaşmasının məziyyətlərini təhlil süzgəcindən keçirirlər.

Qəhrəmanlar təkcə özləri üçün yaşamırlar, onlar ömürlərini cəmiyyətin yaşaması naminə sərf edir, bəzən qurban verirlər. Bir sözlə, sağlam düşüncə ilə silahlanmış insanlar əslində dünyanın mənəvi harmoniyasını təmin edirlər. Görünür, Şəddat Cəfərovun özü də elə qəhrəmanların həyatlarını məhz bu cəhətlərinə görə tərənnüm etməkdən yorulmur. 20-ci əsrin son olaylarının bir sıra siyasətçilərıaz qala İkinci Cahan savaşının qəhrəmanlarını arxa plana keçirmək, onları unutdurmaq yolu seçmişdilər. Amma faşizmin mənfur siması erməni vandallarının timsalında yenidən baş qaldırdı. Şəddat Cəfərov kimi cəfakeş publisistlərin yanaşması əslində həyati zərurətdən yaranmışdı. Elə İkinci Cahan savaşının qəhrəmanlarına həsr olunmuş əsərlərini Şəddat Cəfərovun böyük xidmətlərindən biri, bəlkə də ən əhəmiyyətlisi hesab etmək olar.

"Böyük portretin işığı" (II cild) kitabının müəllifləri Şəddat Cəfərovun yaradıcılığının humanist mahiyyətini düzgün başa düşüb. Və bu dəyərli yaradıcılığı obyektiv qiymətləndirməyə çalışıblar. Müəlliflər Əli Rza Xələfli və Ceyhun Zallı Şəddat Cəfərovun həyatı ilə bağlı ən maraqlı, cəmiyyət üçün faydalı ola biləcək məqamları həssaslıqla diqqətə alıb yazıya gətiriblər. Kitabda "İlklərin paradında" adlı maraqlı bir yazı var. Bu yazı xüsusi olaraq Şəddat Cəfərovun həyatının nadir məqamlarına işıq salır. Təfərrüata varmadan, ümumi şəkildə qeyd edirəm ki, Şəddat Cəfərov mənalı həyatında bir çox ilklərə imza atıb. Birini diqqətə çəkirəm. O, Azərbaycanın ilk poliqrafçı alimidir. İlk rəngli klişe ustasıdır. Digər ilkləri isə oxucu kitabdan da əxz edə bilər.

Yazıçı-publisist Əli Rza Xələfli və gənc yazar Ceyhun Zallı böyük zəhmət hesabına bütün həyatını azərbaycançılıq amalına həsr etmiş görkəmli naşir haqqında dəyərli ədəbi abidə yaradıblar.

Nə qədər yazılsa da, insan həyatının görünməyən tərəfləri qurtarmaz. Yazıçılığın əsas missiyası həyatın çoxlu rəngləri fonunda insan ömrünün əlvanlığını orijinallığı ilə göstərməkdir. Zənnimcə, müəlliflər məqsədlərinə nail olublar.

*Elçin* Mehrəliyev
***Filologiya elmləri doktoru, yazıçı-publisist***
***22.12.2021***